# Fransa universitetləri ilə əlaqələr genişlənir




Fransanın Azərbaycandakı səfiri xanım Orelia Buşez Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) olub.

Görüşdə rektor professor Ədalət Muradov bildirib ki, dünyanın və Avropanın nüfuzlu universitetləri ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi və ən mütərəqqi təhsil modelinin Azərbaycan Dövlət İqtisad Universitetinə gətirilməsi prioritetlərimiz sırasındadır. Universitetin beynəlxalq əlaqələrindən danışan rektor UNEC-in Türkiyənin Mövlana proqramına qoşulduğunu və universitetin 100-ə yaxın müəllim və tələbəsinin bu proqramdan yararlandığını vurğulayıb. Rektor bildirib ki, UNEC Erasmus+ proqramı çərçivəsində Avropanın 10 ən nüfuzlu universiteti ilə razılıq əldə edib. Razılığa əsasən, bu il Azərbaycan Dövlət İqtisad Universitetinin 103 müəllim və tələbəsi həmin universitetlərdə mübadilə proqramında iştirak edə biləcək.

Fransa ali təhsil müəssisələri ilə əlaqələrin genişləndirilməsinin əhəmiyyətini vurğulayan rektor bildirib ki, aprel ayında Fransanın qədim Monpelye Universiteti ilə əməkdaşlıq müqaviləsi imzalanacaq. Müqaviləyə əsasən, proqrama qoşulan İqtisad Universitetinin tələbələri 4 il ərzində hər iki universitetin diplomunu əldə edə biləcəklər. Ə.Muradov qeyd edib ki, menecment ixtisası üzrə kadr hazırlığına görə Fransa universitetləri böyük təcrübəyə malikdir. Bu baxımdan həmin universitetlərlə əməkdaşlıq etməkdə maraqlıyıq.

Görüşdə bildirilib ki, səfirin təşəbbüsü ilə universitetin 5 tələbəsi və 3 müəllimi mübadilə proqramı çərçivəsində Fransa universitetlərinə göndəriləcək. Obyektivlik və şəffaflıq baxımından həmin universitetlərə göndəriləcək müəllim və tələbələri Fransa tərəfi müəyyən edəcək.

Rektor Ə.Muradov fiziki məhdudiyyətli tələbələrin ali təhsilə cəlb olunması istiqamətində universitetdə bir sıra layihələrin həyata keçirildiyini, bununla bağlı mərkəzin fəaliyyət göstərdiyini bildirib. “Biz istəyirik ki, fiziki məhdudiyyətli tələbələr də UNEC-in tədris imkanlarından tam istifadə edə bilsinlər” deyən rektor bu təşəbbüslərin daha uğurlu reallaşdırılması üçün təklif və tövsiyələrə açıq olduqlarını bildirib.

Xanım Orelia Buşez Fransanın ali təhsil müəssisələri ilə əlaqələrin yaradılmasını yüksək qiymətləndirib. Bildirib ki, bu əlaqələr hər iki tərəfin maraqlarına cavab verməlidir. Səfir menecment sahəsi üzrə kadr hazırlığında Fransa universitetlərinin ən qabaqcıl təcrübəyə malik olduğunu da diqqətə çatdırıb. Bildirib ki, Fransa səfirliyi fiziki məhdudiyyətli gənclərin universitetdə təhsil alması üçün hər cür dəstək göstərməyə hazırdır.

Bundan başqa, xanım Buşez UNEC ilə Azərbaycan iqtisadiyyatının diversifikasiya edilməsi istiqamətində bir sıra tədbirlərin keçirilməsini təklif edib.

Milli Erasmus+ ofisinin rərbəri Pərviz Bağırov Erasmus+ layihəsinin icrasında UNEC-in aktiv iştirakını xüsusi vurğulayıb. Bildirib ki, 2016-cı ildə universitet daha 2 layihə ilə Avropa Komissiyasına müraciət edib.

Tədbirdə Fransa və ABŞ-ın birgə təhsil müəssisəsi olan CEFAM-ın (International School of Business and Management) nümayəndələri də müəllim və tələbə mobilliyi mövzusunda təqdimatla çıxış ediblər.

***“Azərbaycan”***